# Qanunsuz tikililərə son

***"Energetika haqqında", "Qaz təchizatı haqqında" və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir.***

***1 oktyabr 2023-cü il tarixindən qüvvəyə minən Qanuna əsasən, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin müvafiq maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı, qaz qurğularının qazpaylayıcı, su təchizatı və kanalizasiya şəbəkəsinə qoşulması qadağandır.***

# YAP Qəbələ rayon təşkilatı iməcilik aksiyası keçirmişdir



Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin prezident seçilməsinin 20 illiyi ilə əlaqədar YAP Qəbələ rayon təşkilatının təşkilatçılığı ilə şəhər ərazisində iməcilik aksiyası keçirilmişdir. Partiya üzvlərinin və gənc fəalların iştirakı ilə keçirilən aksiya zamanı magistral yollar, park və xiyabanlar təmizlənmiş, ağaclar budanmış, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək bərk tullantılar daşınmışdır.

# Müstəqilliyin Bərpası Gününə həsr edilmiş rayon birinciliyi

Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı, Rayon Təhsil Sektorunun və Qəbələ Atıcılıq Klubunun



dəstəyi ilə Atıcılıq Klubunda 18 oktyabr 2023-cü il tarixdə yeniyetmə və gənclər arasında pnevmatik tüfəngdən güllə atıcılığı üzrə rayon birinciliyi keçirilmişdir.

Yarışın keçirilməsində məqsəd 18 oktyabr - Müstəqilliyin Bərpası Gününün yaranma tarixini ictimaiyyətə çatdırmaq, həmçinin rayonda güllə atıcılığı idman növünün inkişaf etdirilməsi, yeniyetmələrə sağlam həyat tərzinin aşılanması, bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi və təbliğ olunması, yeniyetmə və gənclərin idman ustalıqlarının artırılmasından ibarətdir.

Yarışın açılış mərasimində Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin rəisi Ramiz Mahmudov və Qəbələ Atıcılıq Klubunun meneceri Anar Məcnunov çıxış edərək yarış iştirakçılarını salamlayaraq bayram münasibətilə təbrik etmiş, respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək komandalara uğurlar arzulamışlar.

Yarışlar komanda və şəxsi xarakter daşıyır. Birincilikdə rayonun 28 tam orta məktəblərindən 90-dək idmançı mübarizə aparmışdır.

Yarışın yekun nəticəsinə əsasən, Qəbələ şəhər 3 saylı tam orta məktəbin komandası I yer tutaraq kubokun sahibi olmuş, Uludaş kənd tam orta məktəbin komandası II yeri və Qəbələ şəhər 1 saylı tam orta məktəbin komandası III yeri tutmuşdur. Fərdi mübarizədə isə I, II və III yerləri tutmuş oğlan və qızlar idarənin diplomları ilə mükafatlandırılmışlar.

# Azərbaycan Qadınlarının VI qurultayının yerli toplantısı keçirilib

Qəbələ rayonunda müstəqil Azərbaycanın memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Azərbaycan Qadınlarının VI qurultayına hazırlıq məqsədilə toplantı keçirilib. Toplantıda RİH-nin, təhsil, səhiyyə, mədəniyyət sahəsində çalışan, müxtəlif sahibkarlıq fəaliyyəti ilə məşğul olan və rayonun ictimai siyasi həyatında fəallığı ilə seçilən xanımlar iştirak edib. Öncə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhadətə yüksələn şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova "Ulu Öndər Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" ilə bağlı son illər rayonumuzda görülmüş işlər barədə məlumat vermiş, ölkəmizdə dövlət - qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının məhz Heydər Əliyevin adı ilə bağlı olması və bu siyasətin bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs etmiş, Azərbaycan qadınlarının dövlət idarəçiliyində iştirakının ən ali təcəssü-




münü Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın timsalında aydın göründüyünü qeyd etmişdir. Çıxış edənlər Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakından danışmışlar. Sonda qadınların üzləşdiyi problemlər müzakirə olunmuş, təkliflər səsləndirilmişdir.

# Beynəlxalq Müəllimlər Günü

Qəbələdə Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova tədbirdə çıxış edərək təhsil işçilərini Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik etmiş, ölkəmizdə müəllim əməyinə verilən yüksək qiymətdən, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil strategiyasının bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilməsindən danışmış, Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heyər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin digər bölgələri ilə yanaşı, Qəbələ təhsilinə də göstərdiyi yüksək diqqət və qayğıdan bəhs etmişdir. Rayon təhsil sektorunun müdiri Arifə Bayramova təhsil işçilərinin ötən dərs ilində əldə etdikləri nailiyyətlərdən, müəllimlərimizin rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirakından söz açaraq qazanılan uğurlarda təhsil işçilərinin də əhəmiyyətli rolu olduğunu diqqətə çatdırıb və bütün müəllimləri bu adın şərəfini daima yüksəltməyə, ölkəmizin inkişafı naminə hazırlıqlı şagirdlər yetişdirməyə səsləyib. Tədbir zamanı Uşaq və Gənclərin İnkişafı Mərkəzinin üzvləri müəllimlərə həsr olunmuş şeirlər səsləndirib, rəqslər ifa edib. Sonda təhsilin inkişafındakı xidmətlərinə, rayonun ictimai işlərində fəallığına görə bir qrup təhsil işçisinə rayon icra hakimiyyətinin və təhsil sektorunun fəxri fərmanları, xatirə hədiyyələri təqdim edilib.



# Bu, sadəcə, başlanğıcdır

***Prezident ilham Əliyev regionda ən böyük günəş elektrik stansiyasının açılışını etdi***

Oktyabrın 26-da Abşeron yarımadasının boş hissəsinin yaşıl enerji mənbəyinə çevrilməsi məqsədilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Qeyd edək ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Hazırda aparılan içlər uğurla davam etdirilir. Bir qədər sonra, çox qısa zamanda 1 qiqavat bərpa olunan enerji istehsalına yol açacaq üç investisiya sazişinin imzalanma mərasiminin keçirilməsi nəzərdə tutulmuşdur. Bu günkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir. Kezirilən mərasimdə üç investisiya sazişi imzalanmışdır. Lakin ölkə başçısının planları daha genişdir. Mərhələlərlə 10 qiqavata qədər bərpa olunan enerji istehsal etmək üçün birgə işləmək planlaşdırılır və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir.

**(Ardı 6-cı səhifədə).**